

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 56 (23.218)

28 mart 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 26-da Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan “Bakmil” stansiyasında yaradılan şəraitlə tanış olub.



Dövlətimizin başçısına məlumat verilib ki, burada 2017-ci ilin avqustundan mərhələli şəkildə yenidənqurma işlərinə başlanılıb. Bura 1970-ci ildə açılıb və 9 il “Nərimanov” elektrik deposunun platforması olub. 1979-cu ildən isə stansiya kimi fəaliyyətə başlayıb. Müasir səviyyədə yenidən qurulan stansiyanın əsas memarlıq görkəmi saxlanılaraq infrastrukturu və fasadı tamamilə yenilənib. Giriş-çıxışı birbaşa ikinci mərtəbədən olan “Bakmil” Bakı Metropoliteninin yeganə yerüstü stansiyasıdır. Stansiyada monolit dəmir-beton konstruksiyalı sərnişin platforması inşa edilib ki, bu da əvvəlkindən daha etibarlı, davamlı və uzunömürlüdür. Stansiyanın təmirdən sonra ən mühüm yeniliyi sərnişinləri birbaşa ikinci mərtəbədə – platforma səviyyəsində qəbul etməsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 27 mart tarixli Sərəncamı ilə Azərbaycan dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının yaranmasının 100 illik yubileyi münasibətilə və milli təhlükəsizliyin təmin edilməsində, xarici xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınmasında, beynəlxalq terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa, dini ekstremizmə qarşı mübarizədə fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları da vardır.

**Kazımov Füzuli Şahsuvar oğlu – mayor**
“Vətən uğrunda” medalı ilə,

**Teymurov Elşad Elşən oğlu – kapitan**
“İgidliyə görə” medalı ilə,

**Vəliyev Heydər Vəli oğlu – mayor**
“Hərbi xidmətlərə görə” medalı ilə təltif edilmişlər.

# Mənəvi dəyərlərimizə böyük qayğı

## Naxçıvanda yeni məscid inşa olunur





Bu gün Naxçıvan Muxtar Respublikasında iqtisadi və mədəni inkişafla yanaşı, dini-mənəvi dəyərlərin qorunmasına da xüsusi diqqət yetirilir. Dini dəyərlərin mahiyyətinə



uyğun təbliğ olunmasına, dini-tarixi abidələrin bərpası və yeni məscidlərin tikilməsinə mühüm əhəmiyyət verilir. Hazırda Naxçıvan şəhərində inşası davam etdirilən yeni məscid də mənəvi dəyərlərimizin yaşadılacağı məkan kimi diqqəti cəlb edir.

Martın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məscidin tikintisi ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, məscid kompleksinin sahəsi 6400 kvadratmetrdir. Eyni vaxtda 5 min nəfərin ibadət edəcəyi məsciddə qadın və kişilər üçün nəzərdə tutulmuş ibadət zalları, eləcə də mədrəsə olacaqdır. İki minarəli və 15 günbəzli məsciddə əsas tikinti işləri başa çatdırılıb. Naxçıvan və Şərq memarlıq üslubunda inşa olunan məscidin günbəzlərinin hündürlüyü 12, minarələrinin hündürlüyü isə 40 metrdir. Hazırda məscid binasının fasadında və daxilində işlər milli nəqqaşlıq elementləri və dini rəmzlər əsas götürülərək davam etdirilir.



Kompleksdə Naxçıvan Muxtar Respublikası Qazisi yanında Şura üçün ikimərtəbəli inzibati bina və ikimərtəbəli mərasim binası da inşa olunub. İnzibati binada iş, kəbin və digər xidməti otaqlar, mərasim binasında isə ayrı-ayrılıqda qadınlar və kişilər üçün zallar, texniki otaqlar və dəstəmazxanalar olacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinin keyfiyyətinə diqqətin artırılması, yerli iqlim xüsusiyyətlərinin nəzərə alınması, məscidin fasadına və daxilinə İslam dəyərlərinə və milli memarlıq üslubuna uyğun tərtibat verilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# “Saat Meydanı” Kompleksi sakinlərin və turistlərin rahatlığına hesablanıb

Əhalinin rahatlığının təmin olunmasında və turizm infrastrukturunun inkişafında vacib məsələlərdən biri də müasir xidmət sahələrinin yaradılmasıdır. Muxtar respublikada turistlərin tələbatına uyğun xidmət sahələrinin yaradılması əsas hədəflərdəndir. Hazırda Naxçıvan şəhərində “Saat Meydanı” Kompleksi inşa olunur.

Martın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kompleksdə olmuş, görülən işlərlə maraqlanmışdır.

Bildirilmişdir ki, ümumi sahəsi 10 min kvadratmetr olan kompleks dairəvi formada tikilmiş 2 mərtəbəli binadan, 6 metrlik saat qülləsindən və meydandan ibarətdir. Binanın birinci mərtəbəsində 4 restoran və 1 kafe fəaliyyət göstərəcək, sakinlərə və turistlərə Naxçıvan, eləcə də Türkiyə, Çin, gürcü, yapon, ingilis mətbəxlərinin nümunələri

Ardı 2-ci səhifədə





təqdim olunacaqdır. Gənclərin asudə vaxt keçirmələri üçün hərtərəfli şərait yaradılacaq, 3 kinoteatr istifadəyə veriləcəkdir. Həmçinin burada geyim və hədiyyə dükanları, uşaq əyləncə bölməsi fəaliyyət göstərəcəkdir.

Binanın ikinci mərtəbəsində 43 standart, 4 suit və 1 vip olmaqla 48 otaqlı otel yerləşir. Müasir memarlıq üslubunda inşa olunmuş kompleksin meydanında isə konsert səhnəsi və fəvvarə qurulmuşdur. Ərazidə oturacaqlar qoyulacaq, dekorativ ağac və güllər əkiləcəkdir.

Ali Məclisin Sədri gənclərin və turistlərin maraqlarının nəzərə alınması, xidmət sahələrində kitab mütaliəsi üçün şəraitin yaradılması və yerli ərzaq məhsullarının satışının təşkil olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyası yenidən qurulmuşdur

Martın 27-də Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyası yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.



Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin direktoru Behruz Əzimov çıxış edərək demişdir ki, Maye-Qaz Anbarında və Qazdoldurma Stansiyasındakı binalar, çənlər, elektrik avadanlıqları, borular və digər avadanlıqlar 1961-ci ildə istismara verilmişdir. Bütün avadanlıqlar və tikililər istismara yararlılıq müddətini başa vurmuş, kompressor və nasoslar köhnəlmiş, istismara yararsız vəziyyətə düşmüşdü. Həmçinin alternativ enerji mənbəyi olmadığından enerji kəsilən zaman çətinliklər yaranırdı. Eyni zamanda müəssisə yaşayış binalarının əhatəsində yerləşdiyindən təhlükə yaradırdı. Ali Məclis Sədrinin tapşırığından sonra müvafiq ərazi seçilərək müasir kompleks inşa olundu. Bu da imkan verəcəkdir ki, muxtar respublika əhalisinin, müəssisə və təşkilatlarının maye qaza olan tələbatı tam ödənilsin. Behruz Əzimov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün ölkəmizdə insan amilinə yüksək qiymət verilir. İnsanların təhlükəsiz və rahat yaşayışı diqqətdə saxlanılır. Muxtar respublikada da bu istiqamətdə tədbirlər görülür. Uzun illərdir fəaliyyət göstərən Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyası istismar müddətini başa vurmuşdu. Bu da həmin ərazidə yaşayanlar və işçilər üçün təhlükə yaradırdı. Ona görə də Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının yenidən qurulması üçün qərar qəbul edildi, ərazi seçildi, vəsait ayrıldı və bu işlər həyata keçirildi. Yaradılan şərait kollektivin iş şəraitinin yaxşılaşdırılmasına, eləcə də əvvəlki ərazidə yaşayan insanların təhlükəsizliyinin təmin olunmasına imkan verəcəkdir. Görülən işlər ölkəmizin inkişafının göstəricisi olmaqla yanaşı, həm də dövlətimizin insan amilinə verdiyi qiymətin daha bir ifadəsidir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada bütün yaşayış məntəqələri qazlaşdırılıb. Lakin qaz balonlarından istifadə edən təsərrüfat adamlarının, xüsusilə maye qazla işləyən avtomobillərin sayı artır. Tələbatın ödənilməsi üçün, ilk növbədə, müasir mərkəz



qurulmalı idi. Bundan sonrakı mərhələdə isə rayon mərkəzlərində qazdoldurma stansiyaları qurulacaqdır. Həyata keçirilən bu tədbirlər nəticəsində yeni iş yerləri də açılacaqdır.

Ali Məclisin Sədri demişdir: Müasir Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının istifadəyə verilməsi muxtar respublikada fövqəladə halların qarşısının alınması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Çünki ötən il muxtar respublikada fövqəladə hallar zamanı müəssisə və təşkilatların işinin təşkilinə dair keçirilən müşavirədə qarşıya qoyulan əsas vəzifələrdən biri də Naxçıvan Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının yenidən qurulması idi. Müşavirədən ötən dövrdə müvafiq tədbirlər görülmüş, təhlükəli hallar müəyyənləşdirilərək aradan qaldırılmışdır. Hazırda muxtar respublikada bütün təşkilatlar və obyektlər fövqəladə hallara tam hazırdır.

Ali Məclisin Sədri Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının qurulmasında əməyi olanlara təşəkkürünü bildirmiş, kollektivə fəaliyyətlərində uğurlar arzulamışdır.

Məlumat verilmişdir ki, yeni tikilmiş Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasında ümumi tutumu 200 kubmetr olan 4 çən qurulmuşdur. Çənlərdə 95,2 ton maye qaz saxlamaq mümkündür. Yenidənqurma işləri zamanı təhlükəsizlik qaydalarına və standartların tələblərinə tam əməl olunmuşdur. Müəssisədə müasir soyutma, işıqlandırma və video-nəzarət sistemləri, hava kompressoru, reduktor, rəqəmsal generator, 3 tərəzidən ibarət elektron dolma aparatı və təhlükəsizlik açarları quraşdırılmış, yanğınsöndürmə avadanlıqları qoyulmuşdur. Elektron dolma aparatı vasitəsilə 40 saniyədə istənilən ölçüdəki balonları doldurmaq mümkündür. Yeni nasoslar isə saatda 15 ton maye qaz boşaltmaq gücünə malikdir.

Müəssisədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən 24 saat təhlükəsizliyə nəzarət olunur. Hər hansı bir təhlükə yarandıqda həyəcan siqnalı işə düşür və sistem avtomatik olaraq bütün avadanlıqları bağlayır. Eyni zamanda çənlərin üzərindəki qoruyucu açarlar da yüksək təzyiq olduğu zaman avtomatik olaraq açılır, təzyiq normala düşdükdə isə bağlanır. Bundan əlavə, müəssisədə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə tutumu 2,5 ton olan köpük çəni quraşdırılmışdır.

Ərazidə maye qazla işləyən avtomobillər üçün yanacaqdoldurma məntəqəsi də istifadəyə verilmişdir.

Ali Məclisin Sədri təhlükəsizlik tədbirlərinə ciddi əməl olunması, ərazidə yaşıllıqların salınması və muxtar respublikanın rayonlarında da qazdoldurma məntəqələrinin qurulması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Muxtar respublikanın təhlükəsizlik orqanları qayğı ilə əhatə olunub

***1918-ci ildə öz müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti vətənimizin qarşılaşdığı daxili və xarici təhlükələri nəzərə alaraq 28 mart 1919-cu ildə Hərbi Nazirliyin Baş Qərargahının general-kvartirmeystr şöbəsində kəşfiyyat və əks-kəşfiyyat bölməsini yaratmışdır. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin bolşevik Rusiyası tərəfindən işğalı burada milli kəşfiyyat və əks-kəşfiyyat sistemini daha da təkmilləşdirərək ərazi orqanlarının yaradılması səylərini yarımçıq qoydu.***



Azərbaycan Respublikasında təhlükəsizlik orqanlarının inkişafı, bu sahədə fəaliyyətin xalqımızın milli maraqlarına uyğun qurulması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. ***“Dövlətimizin, xalqımızın təhlükəsizliyini təmin etmək peşəsinə sahib olmaq hər bir vətəndaş üçün şərəfli vəzifədir. Gərək hər bir əməkdaş bunların müqabilində öz məsuliyyətini dərk edə bilsin və üzərinə düşən vəzifəni yerinə yetirə bilsin”***, – deyən ulu öndərimizin ötən əsrin 60-cı illərində Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində rəhbərliyə gəlməsi bu qurumun tarixində milli prioritetlərin müəyyənləşməsi kimi xarakterizə edilən yeni dövrün başlanğıcı kimi qəbul olunur. Böyük şəxsiyyətin Azərbaycan xüsusi xidmət orqanlarına rəhbərliyi illərində kadr potensialının formalaşdırılması, təhlükəsizliyin təminatında xalqımızın milli maraqlarının ön plana çəkilməsi və qorunması məqsədilə mühüm tədbirlər həyata keçirilmişdir. Ulu öndər xalqımızın mənafelərini, milli-mədəni irsini, milli dəyərlərini sovet rejiminin amansız təhdidlərindən qorumaq naminə böyük iradə və dəyanət nümayiş etdirmişdir.

Müstəqilliyin ilk illərində ölkəmizdə baş verən hərc-mərclik, silahlı birləşmələrin mərkəzi hakimiyyətə tabe olmaması, separatçılıq meyillərinin güclənməsi, digər tərəfdən Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasəti və o dövrdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi Azərbaycanın milli təhlükəsizliyinə qarşı ciddi təhdidlər yaratmışdı. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında siyasi, sosial-iqtisadi, hərbi sahələrdə yaşanan böhran vəziyyəti daha da ağırlaşdırmışdı. Bu dövrdə ulu öndər Heydər Əliyevin öz doğma yurdu Naxçıvana qayıtması və siyasi fəaliyyətə başlaması xalqın itən inamını özünə qaytardı. Həmin dövrdə Ermənistan tərəfdən işğal təhlükəsi ilə üzləşən, blokadaya alınan muxtar respublikanın siyasi-iqtisadi təzyiqlərdən çıxarılması, hərbi təhdidlərdən xilas olması yalnız ulu öndərin həyata keçirdiyi çevik və uğurlu siyasət nəticəsində mümkün olmuşdu.

Ümummilli liderimiz muxtar respublikanın təhlükəsizlik və müdafiə problemlərinin həllinə də xüsusi diqqət yetirmiş, bu məqsədlə xüsusi xidmət orqanlarında mühüm islahatlar həyata keçirmişdir. Belə ki, 1991-ci ildə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin tabeliyində olan Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyəti dayandırılmışdır. 1992-ci il sentyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin yaradılması haqqında qərar qəbul edilmişdir.

Azərbaycan Respublikasında xüsusi xidmət orqanlarının fəaliyyətinin səmərəliliyini artırmaq və dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədilə Prezident İlham Əliyevin 14 dekabr 2015-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin əsasında Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti yaradılmışdır. Naxçıvan Muxtar Respublikasında da idarəetmə strukturu təkmilləşdirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 18 dekabr 2015-ci il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti yaradılmışdır.

Yeni yaradılan Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin qarşısında milli maraqların etibarlı qorunması və təhlükəsizliyin hərtərəfli təmin edilməsi əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında milli təhlükəsizliyin təmin edilməsi qarşıda duran başlıca vəzifədir”.***

Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti ötən dövr ərzində dövlət siyasətinin həyata keçirilməsində və sabit ictimai-siyasi mühitin yaradılmasında uğurlu fəaliyyət göstərmiş, dövlətimizin milli mənafelərinin qorunmasını təmin etmişdir. Bu gün xidmət dövlət təhlükəsizliyinin keşiyində dayanmaqla yanaşı, həm də yeni dövrün çağırışlarına hazır olmaqla gələcəyin təminatçısı funksiyasını yerinə yetirir. Ötən dövr ərzində xidmətin əməliyyat fəaliyyətinin bütün aparıcı istiqamətləri üzrə həyata keçirdiyi tədbirlər nəticəsində təhlükəsizliyimizə və milli maraqlarımıza qarşı yönəlmiş cinayətkar əməllərin vaxtında aşkarlanması və qarşısının alınması istiqamətində uğurlu nəticələr əldə edilmişdir.

Dövlət quruculuğu prosesində yaxından iştirak edən Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti muxtar respublikanın ictimai-siyasi, elmi-mədəni mühitinin inkişafında, ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin bütün istiqamətləri üzrə işin səmərəli təşkilində, ən başlıcası vətəndaşların təhlükəsizliyinin təmin olunmasında digər dövlət qurumları ilə əlaqəli şəkildə fəaliyyət göstərir. Bu gün təhlükəsizlik xidməti Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hüquq-mühafizə orqanları qarşısında mühüm vəzifə kimi qoyduğu ümumprofilaktik tədbirlərin keçirilməsi işini də daim diqqət mərkəzində saxlayır. Əməkdaşlar tərəfindən gənc nəslin milli və əxlaqi dəyərlərə, adət-ənənələrimizə, dövlətçiliyimizə sadiq, vətənpərvərlik ruhunda tərbiyə olunması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Mütəmadi olaraq əhali arasında maarifləndirici söhbətlər aparılır, onlara ölkə vətəndaşlarını şirnikləndirici, aldadıcı vədlərlə qanunazidd və cinayətkar əməllərə sövq etməyə çalışan ayrı-ayrı təşkilatlar, eləcə də son dövrlər beynəlxalq aləmi təhdid edən radikal, qeyri-ənənəvi dini qruplaşmalar və onların pozuculuq fəaliyyətləri barədə ətraflı məlumatlar verilir.

Bu gün milli maraq və təhlükəsizliyin müasir səviyyədə təmin olunması üçün bütün zəruri tədbirlər həyata keçirilir. Ötən dövrdə xidmətin maddi-texniki bazası davamlı olaraq gücləndirilmiş, rayon şöbələri üçün yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Bütün bunlarla yanaşı, kadr heyətinin vətənpərvər, ixtisaslı, savadlı gənclərlə komplektləşdirilməsi, bacarıqlı kadrların irəli çəkilməsi, işin günün tələbləri və dəyişən əməliyyat şəraitinə uyğun qurulması xidmət fəaliyyətin yüksək səviyyədə təşkilinə və aparılmasına şərait yaratmışdır.

Son dövrlər milli təhlükəsizlik məsələləri daha da aktuallaşmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Ölkəmizin hərtərəfli inkişafı üçün, Azərbaycan xalqının rifahı, sülh şəraitində yaşaması üçün sabitlik, ictimai-siyasi asayiş qorunmalıdır, təhlükəsizliyimiz təmin olunmalıdır”.***

*Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti bundan sonra da dövlət müstəqilliyimizin, təhlükəsizliyimizin və mövcud sabitliyin qorunması istiqamətində bütün qüvvə və səyini səfərbər edəcəkdir.*

**Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti**

# Elmin inkişafı davamlı xarakter alıb



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə martın 27-si Azərbaycan Respublikasında “Elm günü” kimi təsis edilmişdir.***

Azərbaycan Elmlər Akademiyası son 75 ilə yaxın bir dövrdə şərəfli inkişaf yolu keçmişdir. Elmlər Akademiyası ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə daha dinamik inkişaf etmiş, ölkəmiz sürətlə inkişaf edən, yüksələn respublikaya çevrilmişdir. Azərbaycan Respublikası dövlət müstəqilliyi qazandıqdan və dahi rəhbərin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra xalqımızın ictimai-siyasi, milli-mənəvi və mədəni həyatında keyfiyyətcə yeni bir mərhələ başlamışdır. 1997-ci il yanvarın 31-də Azərbaycan Elmlər Akademiyasının rəhbərliyini, alimlərin bir qrupunu Prezident sarayında qəbul edən ümummilli lider demişdir: ***“Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elmi müəssisəsidir. O, dövlətə məxsusdur. Bu akademiyanın işi və orada işləyənlərin səviyyəsi, şübhəsiz ki, başqalarından yüksəkdir, yüksək də olacaq. Biz akademiyanın hörmətini həmişə qoruyub saxlamalıyıq”.***

Ulu öndər Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanına əsasən Azərbaycan Elmlər Akademiyası Azərbaycan Milli Elmlər Akademiyası adlandırıldı. Ümummilli liderin böyük diqqət yetirdiyi Azərbaycan elminin inkişaf konsepsiyası bu gün dövlət siyasətinin tərkib hissəsi kimi uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında” və “Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında” sərəncamlar öz gələcəyini möhkəm və sağlam elmi zəmində qurmaq istəyən qüdrətli Azərbaycanın işıqlı sabahına ünvanlanmışdır.

Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyətini nəzərə alaraq elmi-tədqiqat qurumlarının fəaliyyətini gücləndirmək, mövcud elmi potensialdan səmərəli istifadə etmək, diyarın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şərait yaratmaq məqsədilə ulu öndər Heydər Əliyev 2002-ci il 7 avqust tarixli Sərəncamına əsasən AMEA Naxçıvan Bölməsi yaradıldı. Ümummilli lider bu münasibətlə keçirilmiş müşavirədə bölmənin qarşısında duran vəzifələrdən danışarkən demişdir: ***“Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin... hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, tarixi abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də, düz olaraq deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var”.***

AMEA Naxçıvan Bölməsinin yaradılması muxtar respublikada elmin daha da inkişaf etməsinə geniş imkanlar açmışdır. Bölmənin yaradılması Naxçıvanda elmi mühitin canlanmasına və elmin inkişafına əsaslı təsir göstərdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüsü ilə “Uluslararası qaynaqlarda Naxçıvan” beynəlxalq simpoziumun keçirilməsi Naxçıvanda elmi mühitin inkişafında mühüm rol oynadı, Naxçıvanın hərtərəfli və elmi cəhətdən öyrənilməsinə təkan verdi. Məhz bundan sonra muxtar respublikada qədim diyarın hərtərəfli araşdırılması, xüsusən tarix və mədəniyyət sahələri üzrə genişmiqyaslı tədqiqatların aparılması sahəsində ciddi dirçəliş və irəliləyiş dövrü başlanmışdır. Qısa müddətdə “Azərbaycan tarixində Naxçıvan”, “Naxçıvan tarixinin səhifələri” məqalələr toplularının nəşr olunması, bir neçə elm sahəsi üzrə doktorluq dissertasiyalarının müdafiəsi, çoxsaylı kitabların, elmi məqalələrin meydana çıxması regionda elmin inkişafında böyük potensialın mövcudluğunu aşkara çıxarmışdır. Sonrakı illərdə də beynəlxalq səviyyəli simpozium və konfranslar keçirildi. “Naxçıvanda ilk məktəbin yaranması və maarifçilik hərəkatının inkişafı” (1997), “Uluslararası Dədə Qorqud simpoziumu” (1998), “Yaxın tariximizdə Naxçıvan və Qars” (1999), “Naxçıvanda kiçik biznesin və sahibkarlığın inkişafı” (2000), “Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan istifadənin səmərəli yolları” (2001) beynəlxalq simpozium və konfranslar elmin müxtəlif problemlərinə həsr edilmiş addımlar kimi mühüm əhəmiyyət kəsb etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin elmin, təhsilin və mədəniyyətin inkişafına üstün münasibəti və həmin istiqamətdə apardığı fədakar iş müəyyən olunmuş dövlət siyasətinin uğurla həyata keçirilməsinə səbəb olmuşdur. Muxtar respublikada yayılmış dərman bitkilərinin toplanması, öyrənilməsi, onlardan dərman preparatları, tibdə və məişətdə geniş istifadə edilən cövhər, krem və yağlar, habelə bölgənin mineral xammallarının kimyəvi emalı yolu ilə müxtəlif tərkibli duzlar alınması sahəsində önəmli tədqiqatlar aparılmış, nəticələr əldə olunmuşdur. Elmi kadrların hazırlanmasına başlanılmış, bu məqsədlə 1998-ci ildə Naxçıvan Dövlət Universitetində dörd ixtisas üzrə Dissertasiya Şurası yaradılmışdır. Dissertasiya Şurası Naxçıvanda yüksəkixtisaslı elmi kadrların hazırlanmasında böyük rol oynamış, 1998-2010-cu illərdə şurada 104 nəfər fəlsəfə doktoru və elmlər doktoru dissertasiyaları müdafiə etmişdir. 2006-cı ildən isə AMEA Naxçıvan Bölməsində üç ixtisas üzrə Dissertasiya Şurası yaradılmış, 2013-cü ildən elmlər doktoru dissertasiyalarının müdafiəsini həyata keçirmək səlahiyyəti verilmişdir. 2019-cu ilin əvvəlinə kimi bu şurada 112 nəfər fəlsəfə və elmlər doktoru dissertasiyası müdafiə etmişdir.

1998-2018-ci illərdə muxtar respublikada fəaliyyət göstərən tədqiqatçılardan 182 nəfəri fəlsəfə doktoru, 24 nəfəri isə elmlər doktoru dissertasiyası müdafiə etmişdir. Hazırda muxtar respublikada 43 elmlər doktoru, 300-dən çox fəlsəfə doktoru fəaliyyət göstərir. Azərbaycan Milli Elmlər Akademiyasına 2003, 2007, 2014 və 2017-ci illərdə keçirilən seçkilərdə Naxçıvandan olan elm adamlarından 3-ü akademik, 12-si müxbir üzv seçilmişdir.

Elmin inkişafı, elmi-tədqiqat işlərinin səmərəliliyi onun üçün yaradılmış maddi-texniki baza ilə bilavasitə əlaqədardır. Müasir elm texnika və texnologiyanın ən son nailiyyətlərinə istinad edəndə uğur qazana bilir. Bu cəhətdən həm Naxçıvan Bölməsində, həm də ali təhsil müəssisələrində, xüsusilə Naxçıvan Dövlət Universitetində olan şöbə və laboratoriyaların cihaz və avadanlıqlarla təchizi məsələsi diqqəti cəlb edir. Artıq hər bir elmi işçinin, tədqiqatçının müasir texniki imkanlarla təmin olunması, internet şəbəkəsindən istifadə etməsi müasir cihaz və avadanlıqlar əsasında tədqiqat aparmaq imkanlarını reallaşdırır. AMEA Naxçıvan Bölməsinin Kimya və Biokimya laboratoriyaları üçün 32 adda cihaz və avadanlıq alınmışdır. Naxçıvan Bölməsinin tərkibində ən müasir texnologiyaya əsaslanan Seysmoloji Mərkəz qurulmuşdur. Elmi-tədqiqat və ali təhsil müəssisələrinin tədqiqatları üçün ən yaxşı təchiz edilmiş şöbə və laboratoriyalar yaradılmışdır.

AMEA Naxçıvan Bölməsinin 6 elmi-tədqiqat müəssisəsinin 100-ə yaxın elmi işçisi, ali təhsil müəssisələrinin 420 professor-müəllim heyəti elmi-tədqiqat işləri ilə bu və digər səviyyədə məşğuldurlar. Onların apardıqları elmi-tədqiqat işlərinin nəticələri dünyanın müxtəlif ölkələrinin ən nüfuzlu jurnallarında, ölkənin və muxtar respublikanın elmi jurnallarında dərc edilir. 1995-2018-ci illərdə muxtar respublika tədqiqatçılarının 292 monoqrafiyası, 859 kitabı, 394 dərslik, dərs və tədris vəsaiti, 25 minə yaxın məqalə və tezisi nəşr edilmiş, 70-dən çox patent alınmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təsis etdiyi “Naxçıvan”, AMEA Naxçıvan

*Ardı 4-cü səhifədə*

Bölməsinin "Xəbərlər" və "Axtarışlar" jurnalları, Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin "Elmi əsərlər"i, Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərlər" jurnalı həm beynəlxalq kod almış, həm də Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qəbul etdiyi dövri nəşrlər siyahısına daxil edilmişdir. Naxçıvanlı alimlər hər il dünyanın nüfuzlu jurnallarında elmi məqalələrini nəşr etdirirlər. Bir sıra jurnalların xüsusi nömrələri Naxçıvan Muxtar Respublikasına həsr olunur.

Ali Məclis Sədrinin bilavasitə dəstəyi, qayğısı və himayəsi ilə Naxçıvan Muxtar Respublikasının tarixinin, abidələrinin, folklorunun, ədəbi-mədəni mühitinin, biomüxtəlifliyinin, təbii sərvətlərinin öyrənilməsi istiqamətində tədqiqat işləri aparılmış, bir sıra ümumiləşdirici əsərlər, kitab və monoqrafiyalar çap edilmişdir. Naxçıvanlı tədqiqatçıların yaxından iştirakı ilə 2002-ci ildə "Naxçıvan ensiklopediyası" nəşr olunmuşdur. "Naxçıvan abidələri ensiklopediyası" (Azərbaycan və ingilis dillərində), "Naxçıvan: tarixi və abidələri" (iki dildə), "Naxçıvan tarixi atlası", "Naxçıvanın folklor antologiyası" (üç cilddə), "Naxçıvan teatrının salnaməsi" (1883-2008-ci illər), Naxçıvan Muxtar Respublikasının flora və faunasının "Qırmızı kitabı" (iki cilddə), "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: mövcud vəziyyəti və perspektivləri", "Naxçıvan dialektləri", "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri" (Azərbaycan və rus dillərində), "Naxçıvan arxeologiyası", "Naxçıvan tarixi" (üç cilddə), "Naxçıvan coğrafiyası" (iki cilddə), "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlası, "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" kitabları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. "Naxçıvan tarixi" və "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" kitab və monoqrafiyası Naxçıvan Muxtar Respublikası mükafatına layiq görülmüşdür.

Elm və ali təhsil müəssisələrində aparılan elmi-tədqiqat işlərinin nəticələri geniş müzakirə edilir, nöqsan və çatışmazlıqların aradan qaldırılması yolları müəyyənləşdirilir. İlk dəfə olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiya iclası və AMEA Rəyasət Heyətinin üzvlərinin iştirakı ilə AMEA Naxçıvan Bölməsinin 2008-ci ilin elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına həsr edilmiş hesabat yığıncağı 2009-cu ilin fevralında və AMEA Rəyasət Heyətinin səyyar iclası 2015-ci ilin iyulunda Naxçıvanda keçirilmişdir. Hər iki iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov proqram xarakterli çıxış etmişdir. Ali Məclisin Sədri demişdir: ***"Elmi tədqiqatlar o vaxt ideyadan əməli işə keçir ki, onun reallaşmasına şərait yaradılsın. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında elm infrastrukturu tamamilə yenidən qurulub. Azərbaycan elmi qabaqcıl dünya təcrübəsi əsas götürülərək inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında da elmin iqtisadiyyata tətbiqi dayanıqlı inkişafın əsas şərtidir. Artıq muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar ciddi elmi-nəzəri əsaslara söykənir".***

Naxçıvan elm adamlarının fəallığı Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası, mədəniyyəti, ədəbiyyatı, dialekt və şivələri, təbii və bioloji müxtəliflikləri, təbii sərvətləri və başqa sahələri dərin araşdırmalara cəlb edilmişdir. Aparılan ciddi elmi fəaliyyətlər Naxçıvanda tarix, ədəbiyyat, dilçilik, arxeologiya, etnoqrafiya, botanika və başqa sahələrdə elmi məktəblərin formalaşmasına da töhfələrini vermişdir. Alimlərin ciddi tədqiqatları nəticəsində Naxçıvanın tarixi və arxeologiyası sahəsində daha sanballı nəticələr əldə edilmiş, Naxçıvanda insan yaşayışının tarixi 500-300 min, ilkin şəhər mədəniyyətinin yaranmasının 5 min ildən artıq tarixə malik olması, Naxçıvanın Kür-Araz və boyalı qablar mədəniyyətinin ilk beşiklərindən olması, eləcə də bu mədəniyyəti yaradan tayfaların Naxçıvan ərazisində yaşaması, Naxçıvan ərazisində II Kültəpə, Şahtaxtı, Nuhdaban, Oğlanqala və Naxçıvan şəhər dövlətlərinin, Duzdağın mədən üsulu ilə dünyada duz çıxarılan (b.e.ə.V-IV minillik) ilk duz mədəni olması sübuta yetirilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Gəmiqaya abidələrində alimlərin apardığı araşdırmalar, habelə Naxçıvandakı Ovçular təpəsi, Oğlanqala, Qız qalası, I Kültəpə, Xaraba Gilan, Duzdağ, Sirab ətrafı, Naxçıvantəpə və başqa ərazilərdə aparılmış arxeoloji tədqiqatlar zamanı tarixi əhəmiyyət kəsb edən maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Muxtar respublika ərazisində bu günədək 1218 tarix və mədəniyyət abidəsi qeydə alınmışdır. Dünya və ölkə əhəmiyyətli 550-yə yaxın abidə əsasında "Naxçıvan abidələri ensiklopediyası" hazırlanmışdır.

Əvvəlki illərdə olduğu kimi, 2001-2018-ci illərdə də beynəlxalq və respublika səviyyəli elmi konfranslar, simpoziumlar keçirilmiş, bu elmi tədbirlərdəki məruzələr toplu halında nəşr edilmişdir. "Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyəti, təbii sərvətlərinin öyrənilməsi" (2004), "Azərbaycanda elmin inkişafı və regional problemlər" (2005), "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri" (2006), "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik" (2007), "Naxçıvan bu gün: islahatlar, perspektivlər" (2008), "Nuh Peyğəmbər, dünya tufanı və Naxçıvan" (2009), "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" (2011), "Naxçıvan: ilkin şəhər və Duzdağ" (2012), "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" (2014), "Naxçıvan qalaları: tarixdə və gündüzdə" (2016), "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" (2017), "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı" (2018) mövzularında keçirilən beynəlxalq elmi konfrans və simpoziumlar elmin inkişafına, bir sıra tarixi fakt və hadisələrin dəqiqləşdirilməsinə təsir etmişdir.

Naxçıvanda elmin inkişafı elmi əlaqələrin də genişlənməsinə səbəb olmuşdur. Naxçıvanın elm adamları dünyanın müxtəlif ölkələrində keçirilən elmi tədbirlərdə, beynəlxalq səviyyəli simpoziumlarda iştirak və çıxış edirlər. Naxçıvanlı alimlərdən hər il 70-75 nəfəri 60-a yaxın beynəlxalq tədbirlərə – konfrans və simpoziumlara qatılırlar. Təkcə belə bir faktı qeyd etməliyik ki, son üç ildə AMEA Naxçıvan Bölməsinin əməkdaşlarından 102-si 142 beynəlxalq səviyyəli elmi simpoziumlara qatılmış və maraqlı məruzələrlə çıxış etmişlər. Bu isə elmi əlaqələrin genişlənməsinə və elmi potensialın inkişafına müsbət təsir göstərir. Son illərdə Naxçıvanda 50-dən çox beynəlxalq simpozium keçirilmiş, həmin simpoziumlarda ABŞ, İngiltərə, Fransa, Rusiya, Türkiyə, Ukrayna, İran, Gürcüstan və başqa ölkələrdən gələn alimlər iştirak etmişlər.

Naxçıvanın bir qrup elm və təhsil işçisi orden və medallarla təltif olunmuş, yüksək fəxri adlara layiq görülmüş, 3 nəfəri Azərbaycan Respublikası Milli Məclisinə, 15 nəfəri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmişdir. 7 nəfər Azərbaycan Respublikasının "Əməkdar elm xadimi", 2 nəfər "Şöhrət" və "Şərəf" ordenlərinə, onlarla tədqiqatçı "Tərəqqi" medalına və fəxri adlara layiq görülmüşdür.

*Muxtar respublika rəhbərinin elm adamlarına göstərdiyi diqqət və qayğı doğma diyarımızda elmin, milli ziyalılığın inkişafına, elmi potensialın artmasına misilsiz töhfədir.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Beynəlxalq Teatr Günü qeyd olunub

*Martın 27-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Beynəlxalq Teatr Günü münasibətilə tədbir keçirilib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bu günün tarixi barədə məlumat verib.

Nazir qeyd edib ki, qədim və zəngin ənənələrə malik Azərbaycan teatrı ümummilli liderimizin ölkəmizə rəhbərlik etdiyi illərdə əsl inkişaf və intibaha qovuşub, peşəkar aktyor və rejissor kollektivi formalaşıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında da teatrların fəaliyyətinə hərtərəfli qayğı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Teatrlarımızın yaradıcılıq axtarışları günü-gündən genişlənir.

Nazir çıxışının sonunda bildirib ki, xalqımızın qədim və zəngin mədəniyyətini yaşatmaq, vətənpərvərlik duyğularını gücləndirmək, yüksək səviyyəli estetik-mənəvi təsirə malik olan əsərləri səhnəyə gətirmək teatrlarımızın mühüm vəzifəsi və məqsədidir.

Tədbirin bədii hissəsində yazıçı-dramaturq, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Əli Əmirlinin "Əli və Nino" tamaşasına baxış olub.

**Əli RZAYEV**

## Növbəti tədbir Oğlanqala kəndində keçirilib

***Şərur Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə ictimaiyyət nümayəndələrinin, polis veteranlarının və ictimai şura üzvlərinin iştirak etdikləri növbəti tədbir Oğlanqala kəndində keçirilib.***

Tədbiri giriş sözü ilə Oğlanqala inzibati ərazi dairəsi üzrə nümayəndə Arzuman Mehdiyev açıb.

Şərur Rayon Polis Şöbəsinin rəisi, polis mayoru Nəriman İbrahimov çıxış edərək bildirib ki, bölgədə əhalinin böyük əksəriyyəti kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olur. Dövlətin hərtərəfli qayğısı sayəsində məhsul istehsalı ilbəil artır, bu da əhalinin güzəranının gündən-günə yaxşılaşmasına səbəb olur.

Nəriman İbrahimov qeyd edib ki, əkinçiliklə məşğul olanlara göstərilən dövlət dəstəyi bu sahəyə marağı daha da artırıb. Muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində böyük biznesə aparan kiçik sahibkarlığın, o cümlədən ailə təsərrüfatlarının genişlənməsi aqrar sahədə əldə olunan uğurların ildən-ilə artmasına stimul yaradır.

Bildirilib ki, hazırda Şərur rayonunda 84 ailə təsərrüfatı subyekti fəaliyyət göstərir. 2019-cu ilin muxtar respublikamızda "Ailə təsərrüfatları ili" elan olunması da bu sahənin inkişafına göstərilən diqqət və qayğının bariz ifadəsidir.

Vurğulanıb ki, göstərilən diqqət və qayğının müqabilində əkinəyararlı torpaqlardan səmərəli istifadə olunması, yaşıllıqların artırılması məqsədilə ictimaiyyət nümayəndələri, xüsusilə veteranlar, ictimai şura üzvləri yerlərdə mütəmadi söhbətlər aparmalıdırlar.

Polis Şöbəsinin əməkdaşı Vüsal Quliyev çıxış edərək bildirib ki, Azərbaycan polisi bu gün öz sıralarını təhsilli, savadlı və təcrübəli kadrlar hesabına gündən-günə təkmilləşdirir. Kadrların hazırlanmasında Naxçıvan Orta İxtisas Polis Məktəbinin və Azərbaycan Respublikası Xüsusi Təyinatlı Polis Akademiyasının rolu böyükdür. Vüsal Quliyev tədbir iştirakçılarına adıçəkilən məktəblərə qəbul qaydaları və tədrisin təşkili barədə ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Elman MƏMMƏDOV**

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyası

### *2019-2020-ci tədris ili üçün təhsilin bakalavriat səviyyəsinə kursant (tələbə) qəbulu elan edir*

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına 2019-2020-ci tədris ili üçün qəbula namizədlər

*- boyu 170 santimetrdən az olmayan;*

*- tam orta təhsilli və ya tam orta məktəbin buraxılış sinfində oxuyan;*

*- 15.09.2019-cu ilədək 17 yaşı tamam olan;*

*- yaxud müddətli həqiqi hərbi xidmətini başa vuraraq ehtiyata buraxılmış və 15.09.2019-cu ilədək 23 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.*

Akademiyaya qəbul olmaq arzusunda olanlar Fövqəladə Hallar Nazirliyinin xüsusi həkim ekspertiza komissiyasından və nazirlik tərəfindən qəbul edilmiş qaydalara müvafiq olaraq fiziki hazırlıq və seçmə komissiyalarında sınaqdan keçməlidirlər.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı test imtahanlarında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Qəbul imtahanı test üsulu ilə I ixtisas qrupuna daxil olan fənlər üzrə keçirilir. Test imtahanlarının keçirilməsi qaydaları ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının internet saytında və kütləvi informasiya vasitələrində verilən elanlarla tanış olmaq olar.

Akademiyaya qəbul olunan şəxslər təhsil müddətində yemək, geyim forması və yataqxana ilə təmin olunur, təqaüd alırlar. Akademiyada təhsil müddəti 4 ildir. Tədris Azərbaycan dilində aparılır.

Akademiyanın məzunlarına müvafiq olaraq Yanğın təhlükəsizliyi mühəndisliyi və Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi ixtisasları üzrə bakalavr ali-peşə ixtisas dərəcəsi verilir. Məzunlara zabit və ya orta rəis heyəti rütbələri verilməklə onlar Fövqəladə Hallar Nazirliyi sistemində vəzifələrə təyinat alırlar.

Akademiyaya qəbul olmaq istəyənlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

• tərcümeyi-hal (abituriyentin şəxsən özü tərəfindən yazılmış)

• şəxsiyyət vəsiqəsinin və doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti

• hərbi biletin və ya hərbi xidmətə çağırış məntəqəsinə təhkimedilmə vəsiqəsinin əsli və notarial qaydada təsdiq olunmuş surəti

• tam orta məktəbdən, işlədiyi təqdirdə iş yerindən və ya hərbi hissədən xasiyyətnamə

• tam orta təhsil haqqında sənədin əsli və notarial qaydada təsdiq olunmuş surəti, yaxud tam orta məktəbin buraxılış sinfində oxuması haqqında müəyyən olunmuş formada arayış

• yaşayış yerindən arayış (daimi qeydiyyat yerində yaşamadığı halda)

• xüsusi həkim ekspertiza komissiyasına təqdim olunması üçün yaşayış yeri üzrə ruhi-əsəb, narkoloji, dəri-zöhrəvi, vərəm dispanserlərindən və QİÇS haqqında arayışlar, qeydiyyat yeri üzrə poliklinikaya son 5 il ərzində müraciətləri haqqında qısa epikriz

• 4 ədəd 6x4 santimetr ölçüdə rəngli fotoşəkil (ağ fonda, tünd rəngli pencəkdə).

*Sənədlər 2019-cu il aprelin 1-dən 30-dək (bazar günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsində (Naxçıvan şəhəri, Ə.Əliyev küçəsi 25) qəbul ediləcək.*

***Əlaqə telefonları: (036) 545-41-66***

## Elan

Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey 2019-2020-ci tədris ili üçün VII sinfə oğlan şagirdlərin qəbulunu elan edir. Liseyə qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

*1. Şəxsiyyət vəsiqəsinin surəti*
*2. 3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
*3. Valideynin ərizəsi*
*4. Təhsil aldığı məktəbdən arayış*

Sənədlər 1 aprel 2019-cu il tarixdən 30 aprel 2019-cu il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin tədris korpusunda qəbul edilir.

İmtahan 18 may 2019-cu il tarixdə saat $10^{00}$-da Naxçıvan Dövlət Texniki Kollecinin binasında keçiriləcəkdir.

İmtahana buraxılış vərəqələrini 10 may 2019-cu il tarixdən 17 may 2019-cu il tarixədək Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin tədris korpusundan əldə edə bilərsiniz.

**Qeyd:** Liseyə qəbul olmaq istəyən şagirdlər Azərbaycan dili, ingilis dili, riyaziyyat, fizika, biologiya, tarix və coğrafiya fənlərindən imtahan verəcəklər.

***Ünvan: Şərur şəhəri, Sabir küçəsi 26***
***Əlaqə nömrələri: (036) 542-31-63***
***(036) 542-30-76***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 222